

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 118 (23.530)

23 iyul 2020-ci il, cümə axşamı

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 22 iyul tarixli sərəncamları ilə Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafında xidmətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının kütləvi informasiya vasitələrinin əməkdaşları da vardır.

**Canbaxşiyev Səməd Canbağış oğlu**
**Əliyev Rauf Feyzulla oğlu**
**Məhərrəmov Elşən Müslüm oğlu**
**Mirzəyeva Məhəbbət Bədəl qızı**

"Tərəqqi" medalı ilə,

**Heydərova Elnarə Valeh qızı**
**Məmmədova Mətanət Elmixan qızı**
**Seyid Abbas Hüseyn oğlu**

"Əməkdar jurnalist" fəxri adı ilə təltif edilmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli çıxış edərək demişdir ki, son 3 ildə muxtar respublikanın kütləvi informasiya vasitələrinin maddi-texniki bazalarının gücləndirilməsi məqsədilə 500 min manata yaxın vəsait ayrılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 1 iyul tarixli Sərəncamı ilə "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilmişdir. Bu il yanvarın 13-də Dəstə Radio-Televiziya Verici Stansiyası yenidənqurmadan sonra istifadəyə verilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 1 fevral tarixli Sərəncamı ilə Radio-Televiziya Ötürücü Mərkəzi publik hüquqi şəxsi yaradılmışdır. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 11 fevral tarixli Sərəncamı ilə Radio-Televiziya Ötürücü Mərkəzi publik hüquqi şəxsin Televiziya və Radio Verilişləri Redaksiyası Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun tabeliyinə verilmiş, redaksiyanın yeni nizamnaməsi və ştat strukturu təsdiq olunmuşdur. Mart və iyun aylarında "Şərq qapısı", şəhər və rayon qəzetlərinin, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin, eləcə də Televiziya və Radio Verilişləri Redaksiyasının əməkdaşlarına 1 aylıq əməkhaqlarının 50 faizi məbləğində mükafat verilmişdir. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin binasında yenidənqurma və təmir işləri aparılmış, yeni havalandırma sistemi qurulmuş, nəşriyyat üçün 76 min manat dəyərində rəngayırma avadanlığı alınıb gətirilmişdir.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə bu il Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə 91 min manat dəyərində 12 adda 22 yeni çəkiliş və efir avadanlığı, eləcə də 2 xidməti və çəkiliş avtomobili alınmış, aprelin 17-də kollektivə təqdim edilmişdir. Eyni zamanda "Şərq qapısı" qəzetinə 3700 manat dəyərində yeni avadanlıqlar alınıb verilmişdir. Muxtar respublikada fəaliyyət göstərən qəzetlərə maliyyə güzəştləri tətbiq edilir, nəşriyyat xərcləri dövlət tərəfindən qarşılanır. 2020-ci ildə "Şərq qapısı", şəhər və rayon qəzetlərinin çapı üçün "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinə 50 min manata yaxın vəsait ayrılmışdır. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən 2020-ci ilin birinci yarısında "Şərq qapısı", şəhər və rayon qəzetlərinin, Televiziya və Radio Verilişləri Redaksiyasının maliyyələşdirilməsinə 280 min manatdan artıq vəsait ayrılmışdır. Fond tərəfindən fevral-iyul aylarında Azərbaycan milli mətbuatının yaranmasının 145 illiyi münasibətilə ümumi mükafat fondu 5800 manat olan yaradıcılıq müsabiqəsi keçirilmiş, müsabiqəyə 48 müəllif tərəfindən 57 material təqdim edilmiş, iyulun 20-də qalib olmuş 12 iştirakçı mükafatlandırılmışdır.

Ülvi Hüseynli demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 22 iyul tarixli Sərəncamı ilə 22 iyul – Milli Mətbuat Günü münasibətilə muxtar respublikanın kütləvi informasiya vasitələri əməkdaşlarına 1 aylıq əməkhaqlarının 50 faizi məbləğində mükafat verilmiş, eləcə də Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşları Məmmədli Aysun Əsgər qızı və İsmayıllı Razim Rafiq oğlu səmərəli fəaliyyətlərinə və gənc ailə olmalarına görə Babək şəhərindəki yeni yaşayış binasında ikiotaqlı mənzillə təmin olunmuşlar.

Ali Məclisin Sədri yeni mənzilin orderini Aysun Məmmədli və Razim İsmayıllıya təqdim etmiş, xatirə şəkli çəkdirilmişdir.

Aysun Məmmədli demişdir: "Gənc jurnalist kimi fəaliyyətimiz üçün hər cür şərait yaradılıb. Qayğı ilə əhatə olunmuşuq. Lakin hər bir gəncin arzusu mənzil sahibi olmaqdır. Bu gün bizə yeni mənzilin verilməsi həm də gəncliyə göstərilən qayğıdır. Səmimi qəlbdən minnətdarlığımızı bildiririk. Çalışacağıq ki, göstərilən etimadı layiqincə doğruldaq".

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov çıxış edərək demişdir ki, muxtar respublikada aparılan quruculuq tədbirləri kütləvi informasiya vasitələrini də əhatə edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 2000-ci il 29 mart tarixli Sərəncamı muxtar respublika mətbuatını yeni inkişaf müstəvisinə çıxarmışdır. Bu gün muxtar respublikanın paytaxtının və hər bir rayonun özünün yüksək poliqrafik keyfiyyətlə çap olunan, dövriliyi təmin edilən və müasir iş şəraiti yaradılan mətbuat orqanı vardır. Eyni zamanda Naxçıvan Dövlət Universitetində Jurnalistika və kitabxanaçılıq kafedrası fəaliyyət göstərir, hər il onlarla tələbə burada təhsil alır. Ümumilikdə, bu ixtisasın ötən dövrdə 200-ə yaxın məzunu olmuşdur. Hazırda 44 tələbə Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisası üzrə təhsillərini davam etdirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 18 may tarixli Sərəncamına əsasən muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarında mətbuat və ictimaiyyətlə əlaqələr üzrə vəzifələrin təsis olunması, son illər bu sahədə keçirilən müşavirələr və Ali Məclis Sədrinin qarşıya qoyduğu vəzifələrin icrası dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında informasiya siyasətinin həyata keçirilməsində yeni mərhələnin əsasını qoymuşdur. Rövşən Hüseynov mətbuat işçiləri adından minnətdarlıq etmişdir.

"Şərq qapısı" qəzetinin baş redaktoru Mehriban Sultanova demişdir ki, böyük maarifçilik ənənələrinə malik Naxçıvanda mətbuatın bir əsrə yaxın qədim və zəngin tarixi vardır. 1921-ci ilin noyabrında Gənclər İttifaqının orqanı olan "Cavanlar həyatı" qəzetinin nəşrə başlaması ilə Naxçıvanda qəzetçiliyin təməli qoyulmuşdur. Ötən əsrin 70-80-ci illərində "Şərq qapısı" qəzetinin gündəlik və böyük formatda nəşri, qəzetin 50 illik yubileyində "Şərəf nişanı" ordeni ilə təltif olunması həmin dövrdə Azərbaycana rəhbərlik edən görkəmli dövlət xadimi Heydər Əliyevin mətbuata böyük qayğısının təzahürü idi. "Şərq qapısı" qəzeti XX əsrin 90-cı illərinin əvvəllərində Sovetlər Birliyində nəşr olunan ilk müstəqil mətbuat orqanı kimi tarixə düşmüşdür. Ümummilli liderin "Şərq qapısı" qəzetinin 26 iyul 1990-cı il tarixli nömrəsində Vətənə qayıtdıqdan sonra Azərbaycan mətbuatında dərc olunmuş ilk müsahibəsi də qəzetin fəaliyyət tarixində şanlı səhifədir. Son 25 ildə muxtar respublikada digər sahələr

*Ardı 2-ci səhifədə*

## Naxçıvanda Azərbaycan milli mətbuatının 145 illik yubileyi qeyd olunub

İyulun 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan milli mətbuatının 145 illiyi münasibətilə tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Bu gün milli mətbuatımızın yaranmasından 145 il ötür. 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin nəşrə başlaması ilə milli mətbuatımızın əsası qoyulmuşdur. Eyni zamanda 22 iyul dövlətçilik tariximizdə əlamətdar gün kimi qeyd olunur. 1990-cı il iyulun 20-də ümummilli liderimiz Heydər Əliyev Moskvadan Bakıya, iki gün sonra – iyulun 22-də isə Naxçıvana gəlmiş, xilaskarlıq missiyasına buradan başlamışdır.

Ali Məclisin Sədri hər iki əlamətdar gün münasibətilə tədbir iştirakçılarını, onların timsalında muxtar respublikanın bütün mətbuat işçilərini və əhalisini təbrik etmişdir.

Ali Məclisin Sədri demişdir: Milli mətbuatımızın əsası 145 il bundan əvvəl qoyulsa da, müstəqil mətbuatımız ümummilli liderimizin muxtar respublikaya rəhbərlik etdiyi dövrdə Naxçıvanda yaradılmışdır. Ulu öndərimizin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra isə Azərbaycanda mətbuatın inkişafı sahəsində əsaslı işlər görülmüş, dövlət-mətbuat münasibətləri yeni mərhələyə qədəm qoymuşdur. Bu gün ümummilli liderimizin yolunu bütün sahələrdə uğurla davam etdirən ölkə Prezidenti mətbuatın inkişafına da xüsusi qayğı göstərir. Artıq ölkəmizdə xalqının taleyini, dövlətinin bu gününü və gələcəyini düşünən, dünyada gedən prosesləri təhlil edən, milli mənafeyimizi qoruyan mətbuat ordusu formalaşmışdır. Ölkə Prezidentinin "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" 2020-ci il 30 iyun tarixli Sərəncamında da deyildiyi kimi, ***"Ölkəmizdə müstəqil, güclü, fəaliyyətini günün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində saxlanılır".***

Ali Məclisin Sədri demişdir: Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da mətbuatın inkişafı sahəsində mühüm işlər görülmüşdür. Bu gün Naxçıvanda "Şərq qapısı", 8 şəhər və rayon qəzeti, elm və ali təhsil müəssisələrinin qəzetləri, 3 televiziya, 3 radio, 1 informasiya agentliyi və onlarla internet informasiya resursları, nəşriyyatlar, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu, Mətbuat Şurası, Televiziya və Radio Şurası fəaliyyət göstərir ki, bunlar da öz ətrafında 400-ə yaxın jurnalisti birləşdirir. Bu, böyük bir nailiyyət, yaradılan şəraitin, ən əsası isə birgə əməyin nəticəsidir.

Ali Məclisin Sədri muxtar respublikada mətbuatın formalaşmasında və inkişafında əməyi, fəaliyyəti olan bütün jurnalistlərə təşəkkürünü bildirmişdir.

Ali Məclisin Sədri demişdir: Mətbuat işçiləri dövrün salnaməsini yaradan və onu gələcəyə daşıyanlardır. Muxtar respublikada jurnalistlərin fəaliyyəti üçün yaradılan şərait qarşıya qoyulan vəzifələri yerinə yetirməyə imkan verir. Bu gün dünyada mövcud olan mətbuat qurumlarının mətbuat sahəsinə nəzər saldıqda, müqayisə etdikdə bir daha aydın olur ki, muxtariyyət statusu bizdən daha çox olanlarda belə, Naxçıvandakı qədər mətbuata qayğı göstərilmir, şərait yaradılmır. Bu da bizi qürurlandırır ki, muxtar respublikamızda vətənpərvər jurnalistlər ordusu formalaşıb. Televiziya, qəzet və digər media qurumları yaratmaq işin bir tərəfidir. Amma əsas məsələ onların səmərəli fəaliyyətinə nail olmaqdır. Bu gün muxtar respublikamızda mətbuat orqanlarının səmərəli fəaliyyəti digər media orqanlarının yaranması üçün əsas verir.



Qeyd olunmuşdur ki, muxtar respublikada peşəkar jurnalistlər formalaşdırmaq üçün Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisası yaradılmışdır. Bu gün həmin ixtisası bitirən jurnalistlər artıq muxtar respublikanın mətbuat orqanlarında fəaliyyət göstərirlər. Mətbuata qayğı bundan sonra da davam etdirilməlidir. Çünki hər bir dövr haqqında məlumat əldə etmək üçün, ilk növbədə, həmin dövrün mətbuatı araşdırılır. Ona görə də jurnalistlər bu günümüzün tarixini yaratmağı bacarmalı, müqayisələr aparmalı, tarixə nəzər salınmalı, keçilən inkişaf yolu təhlil edilməli, milli dəyərlərimiz yaşadılmalı, qəzet və teleradiolar ictimai nəzarət funksiyasını uğurla yerinə yetirməlidirlər. Mətbuat orqanları ictimai nəzarət funksiyasını həyata keçirən təşkilatlardır. "Şərq qapısı" qəzetində "Dünən və bu gün" rubrikasında dərc olunan yazılar, Naxçıvan Dövlət Televiziyasında hazırlanan "Zəhmətkeş" verilişi nümunə gücündədir. Bu gün artıq muxtar respublikada medianın bütün sahələri üzrə jurnalistlər formalaşmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi yaradıcılıq müsabiqəsinə təqdim olunan materiallar və seçilən qaliblər də bunu bir daha təsdiq etdi.

Ali Məclisin Sədri müsabiqə qaliblərini, xüsusilə birinci yeri tutanları təbrik edərək demişdir: Birinci yerə layiq görülən Mehriban Sultanovanın "Siyasi sadiqlik əzmi" məqaləsi və Mətanət Məmmədovanın "Naxçıvanın publisistik xəritəsi" kitabı peşəkarlıqla işlənmişdir. Bunlar gənc jurnalistlərin formalaşmasında mühüm əhəmiyyət daşıyır. Yaxşı jurnalistikanın əsasını, mətbuatın əsasını publisistika təşkil edir. Buna görə də bu sahədə nailiyyətlərin olması yaxşı nəticədir.

"Muxtar respublikanın mətbuat işçiləri ilə fəxr edirəm", – deyən Ali Məclisin Sədri Naxçıvanda bütün yaşayış məntəqələrində sürətli internetə və informasiyaya çıxış imkanlarının yaradıldığını bildirmiş, düzgün informasiya siyasətinin həyata keçirilməsində və jurnalistlər arasında varisliyin təmin olunmasında mətbuat işçilərinə uğurlar arzulamışdır.

kimi, mətbuat da yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. 2010-cu ildə "Şərq qapısı" qəzeti redaksiyası və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksinin istifadəyə verilməsindən sonra qəzetin rəngli nəşrinə başlanılmışdır. 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri cənab Vasif Talıbov "Şərq qapısı"nın 90 illik yubileyi münasibətilə redaksiyanın kollektivi ilə görüşmüş, qəzet Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif edilmiş, bir əməkdaş mənzillə təmin olunmuşdur.

Mehriban Sultanova mətbuatın yaxın dostu və himayədarı kimi Ali Məclisin Sədrinə "Şərq qapısı" qəzetinin kollektivi və bütün jurnalist həmkarları adından minnətdarlığını bildirmişdir.

"Nuhçıxan" İnformasiya Agentliyinin baş redaktoru Fizzə Bağırova minnətdarlıq edərək demişdir: "Naxçıvan mediası çoxcəhətli inkişaf yolu keçərək müasir mərhələyə gəlib çatıb. Əgər bu gün Naxçıvanın informasiya blokadasını yardığını qürurla deyə biliriksə, bu reallığın arxasında mediaya gündəlik qayğı dayanır. 2018-ci ildə Ali Məclis Sədrinin müvafiq Sərəncamı ilə yaradılan "Nuhçıxan" İnformasiya Agentliyi muxtar respublikada baş verən hadisələri, ölkə və dünya əhəmiyyətli yenilikləri geniş oxucu və izləyici kütlələrinə çatdırır. Fəaliyyəti dövründə 31 mindən artıq xəbər hazırlanaraq agentliyin saytında yerləşdirilib. Hazırda agentliyin sosial şəbəkə izləyicilərinin sayı 500 mindən, aylıq giriş sayı isə 470 mindən çoxdur. Bu gün Naxçıvan mediasında təmsil olunan gənc jurnalistlərin əksəriyyəti müstəqilliyimizlə həmyaşıddır. Müstəqilliyimizin bəhrələri olan biz gənclər həm də ona görə xoşbəxtik ki, Ali Məclis Sədrinin qayğısı ilə əhatə olunmuş, müasir məktəb və universitetlərdə təhsil almış, yüksək iş şəraiti olan media orqanlarında əmək fəaliyyətinə başlamışıq. Naxçıvanda bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlər isə özlüyündə təkcə mütəxəssis hazırlamamış, həm də cəmiyyətimizə minlərlə vətənpərvər vətəndaş qazandırmışdır".

Sonra tədbirdə iştirak edən media işçiləri minnətdarlıqlarını bildirmişlər.

Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli demişdir ki, Naxçıvan mediasının, eləcə də Naxçıvan teleradiosunun inkişafı tam planlı şəkildə və uğurla həyata keçirilir. Bu gün ən müasir yayım və çəkiliş sistemlərinə malik olan Naxçıvan televiziyası və radiosu 19 saat bütün dünyaya yayımlanır, 140-dan çox ölkədə izlənilir. Hər həftə izləyicilərə rus və ingilis dillərində xəbər buraxılışlarının çatdırılması xarici ölkələrdən izlənməni daha da artırır. Bu hesaba qədim diyarın tarixi-mədəni irsi, turizm potensialı, sosial-iqtisadi həyatı geniş təbliğ edilir. Mediada aparılan tanıtım-təşviqat işlərinin nəticəsi olaraq qədim diyara xarici ölkələrdən gələn turistlərin sayı əvvəlki illərlə müqayisədə dəfələrlə artmışdır. Bütün bunlar Naxçıvanda elektron və sosial medianın hərtərəfli inkişafının təzahürüdür. Muxtar respublikada mediaya yeni yanaşma və onun dövrün çağırışlarına cavab verməsi ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən mətbuata qayğı siyasətində varisliyin təmin olunmasının göstəricisidir.

Sahil Tahirli yeni çapdan çıxmış "Yaratmaq amalı" adlı kitabının ilk nüsxəsini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təqdim etmişdir.

Ali Məclisin Sədri Mətanət Məmmədovanın "Naxçıvanın publisistik xəritəsi" və Sahil Tahirlinin "Yaratmaq amalı" kitablarının Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasında dərs vəsaiti kimi tədris olunmasını tövsiyə etmişdir.

"Şərq qapısı" qəzetinin baş redaktor müavini Mətanət Məmmədova demişdir: "Naxçıvanda mətbuatın bugünkü inkişafı Ali Məclis Sədrinin mətbuata diqqət və qayğısı sayəsində mümkün olmuşdur. Bu, mətbuatın inkişafının bir tərəfidir. Mətbuatın bugünkü inkişafının digər tərəfi isə Ali Məclis Sədrinin, ümumilikdə, muxtar respublikamızın inkişafına diqqət və qayğısı, əzmkarlığı sayəsində mümkün olmuşdur. Çünki bu gün Naxçıvanın ən ucqar kəndlərində tutmuş müasirləşən şəhərlərinədək hər bir yeri qurulub-yaradılanlar, abadlaşdırılanlar ilə jurnalistlərə yeni-yeni yazılar üçün mövzu verir. Naxçıvan artıq 30 ilə yaxındır ki, blokada şəraitində inkişaf və tərəqqi edir".

Naxçıvan Mətbuat Şurası İdarə Heyətinin üzvü Qahirə Hüseynova demişdir: "Muxtar respublikamızda mətbuat, kütləvi informasiya vasitələri yeni inkişaf mərhələsini yaşayırlar. Ali Məclis Sədrinin jurnalistlərlə keçirdiyi görüşlər, milli mətbuatımızın yubileylərinə həsr olunan tədbirlər də bu diqqət və qayğının bariz nümunəsidir. Bugünkü görüşün əhəmiyyəti, həmçinin onunla bağlıdır ki, ulu öndər Heydər Əliyevin Naxçıvana qayıdışı gününün ildönümünə təsadüf edir. Ulu öndər Naxçıvana qayıtdığı gündən mətbuat nümayəndələri ilə görüşlərə hər zaman böyük önəm vermişdir. O zaman Naxçıvan dünya mətbuatının diqqətində idi. Eyni zamanda Ali Məclisin Sədri də yaradıcı ziyalılara, jurnalist əməyinə yüksək qiymət verir. Bu, muxtar respublikada fəaliyyət göstərən media təmsilçiləri üçün çox qürurvericidir. Qürurverici olmaqla yanaşı, həmçinin biz jurnalistlərin məsuliyyətini də artırır. Bu diqqət və qayğıya görə öz adımdan və həmkarlarım adından dərin minnətdarlığımı bildirirəm".

Naxçıvan Dövlət Universitetinin Jurnalistika və kitabxanaçılıq kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Şəhla Şirəliyeva demişdir: "2001-ci ildə Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisası açılmış, 2010-cu ildə jurnalist kadrların praktik cəhətdən hazırlanması üçün Media mərkəzi yaradılmışdır. Media mərkəzi ən son texniki avadanlıqlar, maddi-texniki baza ilə təchiz olunmuşdur. Jurnalistika ixtisasının müvafiq təşkilatlara hamiliyə verilməsi, gənc jurnalistlərin media orqanlarında işə cəlb olunması onların təcrübi cəhətdən hazırlanmasında mühüm addımdır. Təbii ki, Ali Məclis Sədrinin qayğısı ilə jurnalist kadr hazırlığı sahəsində görülən bu işlər dünyada nümunədir. Söz veririk ki, etimadı doğrultmaq üçün daha səylə və məsuliyyətlə çalışacağıq".

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədri Rauf Əliyev demişdir: "Bu gün muxtar respublikada bütün sahələrə yanaşı, mətbuat da sürətlə inkişaf edir. Blokada vəziyyətində əldə edilən hər bir nailiyyət daha çətin başa gəlir, daha çox çalışmaq, daha çox fədakarlıq etməyi tələb edir. Məhz çəkilən böyük zəhmət hesabına muxtar respublikamız bugünkü inkişafa nail olub. İnkişaf edən sahələrdən biri də mətbuatdır. Bu gün muxtar respublikanın media qurumlarının maddi-texniki təchizatı ən müasir səviyyədədir. Naxçıvanda Ali Məclis Sədrinin qayğısı ilə müasir dövrün çağırışlarına cavab verən jurnalistlər formalaşıb. Günün nəbzini tutmaq, operativlik, dəqiqlik jurnalistlərin əsas fəaliyyət istiqamətidir".

"Şərq qapısı" qəzetinin məsul katibi, təcrübəli jurnalist Muxtar Məmmədov demişdir: "Naxçıvan mətbuatında ən böyük qayğını görənlərdən biri də mənəm. 2011-ci ildə "Şərq qapısı" qəzetinin 90 illik yubiley mərasimi keçirilərkən mənə mənzil hədiyyə etmisiniz. Bu, o vaxt idi ki, ölkə Prezidentinin Azərbaycan mətbuatında çalışan jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı Sərəncamına əsasən Bakı şəhərində 5 mərtəbəli binanın tikintisinə başlanılmışdı. Mən qürur duyuram ki, Prezidentin həmin Sərəncamından sonra ölkədə mənzillə ilk dəfə mən təmin olunmuşam. Bu gün iki gənc mətbuat işçisinə yeni mənzilin təqdim edilməsi həmin qayğının davamıdır".

"Nuh yurdu" qəzetinin redaktoru Qafar Qərib muxtar respublikamızda mətbuata göstərilən yüksək diqqət və qayğıdan şəhər və rayon qəzetlərinə də pay düşdüyünü bildirmiş, qəzetlərin bütün texniki vasitələrlə – kompüter, printer, fotoaparat və səsyazma cihazı ilə təmin olunduğunu, yüksək poliqrafik keyfiyyətlə oxucuların görüşünə gəldiyini diqqətə çatdırmışdır.

Naxçıvan Dövlət Televiziyasının Xəbərlər redaksiyasının baş redaktoru Səməd Canbaxşiyev demişdir: "1990-cı illərdə bu peşəni seçəndə fikirləşmirdik ki, mətbuatın 145 illiyinə bu qədər əhəmiyyətli hadisələrlə daxil olacağıq. Bu gün, təəssüf ki, ölkə səviyyəsində jurnalistikanı hörmətdən salan qeyri-peşəkarlar vardır. Amma Naxçıvan jurnalistikası ümummilli liderin müəyyənləşdirdiyi prinsiplərə sadiq qalaraq fəaliyyət göstərir. Ən əsası dövlətçilik və milli dəyərlərin təbliği, görülən işlər bu gün tamaşaçılara, oxuculara çatdırılır, təbliğ olunur. Bu da Ali Məclis Sədrinin bütün sahələrə göstərdiyi qayğının, əldə olunan inkişafın bəhrəsidir. Naxçıvan jurnalistləri xoşbəxtdir ki, Sizinlə eyni dövrdə yaşayır və gördüyünüz işləri gələcək nəsillərə çatdırmaqla Naxçıvanın bugünkü salnaməsini yaradır".

Ali Məclisin Sədri tədbirə yekun vuraraq demişdir ki, həyata keçirilən tədbirlər muxtar respublikada informasiya blokadasını yarmışdır. Artıq muxtar respublikada baş verən hadisələr qısa müddətdə bütün dünyada yayılır. Dünyanın müxtəlif ölkələrində yaşayan ekspertlər, tədqiqatçılar Naxçıvanla bağlı məlumatlar əldə edirlər. Muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafı bundan sonra da diqqətdə saxlanılacaqdır. Hər bir jurnalist isə öz qələmi ilə Vətəninə, xalqına xidmət etməlidir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## *"Mənim Naxçıvana qayıdışım taleyin işi imiş"* mövzusunda onlayn konfrans keçirilib



*AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və "Naxçıvan" Universitetinin birgə təşkilatçılığı ilə "Mənim Naxçıvana qayıdışım taleyin işi imiş" mövzusunda onlayn konfrans keçirilib.*

Konfransı bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq qüdrətli dövlət xadimi, dünya şöhrətli tarixi şəxsiyyət Heydər Əliyevin zəngin, keşməkeşli, şərəfli ömür yolunda onun Naxçıvan dövrü fəaliyyətinin – 1990-1993-cü illərin xüsusi yer tutduğunu qeyd edib. Akademik görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin doğma Vətəni Azərbaycana – Naxçıvana gəlişi və böyük siyasətə qayıdışından 30 il keçdiyini deyib. Bildirib ki, xalqımızın qüdrətli oğlu Heydər Əliyevin müstəsna bir qətiyyət və cəsarətlə 1990-cı ilin iyulun 22-də Moskvadan Azərbaycana dönüşü dövlət müstəqilliyi uğrunda mübarizə tarixində böyük siyasətə qayıdışın başlanğıcı kimi yazılıb.

"Görkəmli dövlət xadimi Heydər Əliyevin Vətənə qayıdışı və hakimiyyət orqanlarının buna münasibəti" mövzusunda məruzə edən bölmə sədri ulu öndər Heydər Əliyevin Naxçıvana, böyük siyasətə qayıdış illərinə nəzər salıb. Bildirib ki, həmin dövrdə Naxçıvan özünün ağır günlərini yaşayırdı.

Böyük qayıdış yolunun Azərbaycanın qurtuluşuna, onun xilasına apardığını vurğulayan akademik, müdrik siyasi xadimin Naxçıvanda yaşayıb-işlədiyi dövrdə qəbul etdiyi dövlət əhəmiyyətli və cəsarətli qərarların, həyata keçirdiyi islahatların Azərbaycan xalqının dirçəlişi, dövlətçiliyin bərpası, milli birliyin, mənəvi bütövlüyün təmin olunması istiqamətində mühüm addımlar atılmasına, ölkənin milli maraqlarının müdafiəsinə və iqtisadiyyatın inkişaf etdirilməsinə misilsiz töhfələr verdiyini deyib.

Qeyd edilib ki, tale Heydər Əliyevi bu diyara gətirməklə Naxçıvanı Dağlıq Qarabağın və Azərbaycanın digər işğal olunmuş rayonlarının acı aqibətindən qoruyub. Prezident cənab İlham Əliyevin qeyd etdiyi kimi, ***"Naxçıvanlılar Heydər Əliyevi qorudu, Heydər Əliyev isə Naxçıvanı xilas etdi".*** Ümummilli liderin müdrik fəaliyyəti, böyük dövlətçilik təcrübəsi, xalqın ona olan sevgisi inam və dəstəyi Naxçıvanı real erməni işğalından xilas etdi.

Diqqətə çatdırılıb ki, ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərdiyi müddətdə Azərbaycan xalqı, Vətəni üçün taleyüklü məsələlərdə daim qətiyyətlilik nümayiş etdirib. Dahi şəxsiyyətin işi və əməlləri bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla davam etdirilir.

Onlayn konfransda, həmçinin bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli "Heydər Əliyevin Azərbaycanın və Naxçıvanın ali hakimiyyət orqanlarına deputat seçilməsi və müstəqillik istiqamətində atılan ilk addımlar", Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev "Naxçıvan Muxtar Respublikasının xarici əlaqələri", Naxçıvan Müəllimlər İnstitutunun rektoru, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Azad Novruzov "Heydər Əliyev və Naxçıvanda həyata keçirilən iqtisadi islahatlar" və "Naxçıvan" Universitetinin rektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Nurlana Əliyeva "Rus qoşunlarının Naxçıvandan çıxarılması və milli ordunun formalaşdırılması" mövzularında məruzə ilə çıxış ediblər.

***AMEA Naxçıvan Bölməsinin***
***Beynəlxalq əlaqələr və***
***informasiya şöbəsi***

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən şəhər və rayon Təhsil şöbələrinin əməkdaşları və muxtar respublika ümumtəhsil məktəbləri direktorlarının iştirakı ilə pedaqoji fəaliyyətlə məşğul olan təhsilverənlərin sertifikasiyası ilə bağlı onlayn müşavirə keçirilib.*

## Təhsilverənlərin Sertifikatlaşdırma Şurası yaradıldı

Təhsil naziri Rəhman Məmmədov son illər muxtar respublikada təhsilin inkişafı istiqamətində həyata keçirilən çoxsaylı tədbirlərdən danışıb. Bildirib ki, ümumtəhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan, ali və orta ixtisas təhsilinə malik təhsilverənlərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının yoxlanılması məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 19 iyun tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"na əsasən 2020-2021-ci tədris ilindən başlayaraq muxtar respublikada müəllimlər ödənişsiz və mərhələli şəkildə sertifikasiyaya cəlb olunacaqlar.

Vurğulanıb ki, sertifikatlaşdırma ilə bağlı nazirlik tərəfindən hazırlıq işləri aparılır. Bu gündən prosesin şəffaf və obyektiv təşkili məqsədilə 5-i Təhsil Nazirliyi, 2-si isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın əməkdaşı olmaqla, ümumilikdə, 7 nəfərdən ibarət Sertifikatlaşdırma Şurası yaradılır. Şura sertifikatlaşdırmanın aparılması ilə bağlı təşkilati işlərə başlayacaq, sertifikasiyaya cəlb edilməsi nəzərdə tutulan təhsilverənlərin siyahısını müəyyənləşdirəcəkdir.

Nazir şuranın Əsasnaməsi ilə bağlı müvafiq tapşırıqlar verib, şura üzvləri arasında vəzifə bölgüsü aparıb.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən birgə keçiriləcək sertifikasiya 2 mərhələdə – test və müsahibə mərhələsində videoçəkiliş təmin edilməklə aparılacaqdır.

Test mərhələləri və təkrar sertifikatlaşma haqqında ətraflı məlumat verən nazir bildirib ki, sertifikatlaşdırmanın test mərhələsində minimum 30, müsahibə mərhələsində isə



azı 20 bal toplamış təhsilverənlər sertifikatlaşdırmadan keçmiş hesab olunacaq və onlara sertifikat veriləcək. Lakin hamilə qadınlar, uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra 1 ildən az müddətdə müvafiq vəzifədə çalışan qadınlar, eyni zamanda uşağını təkbaşına böyüdən kişilər sertifikatlaşdırmadan keçməyəcəklər. İlk dəfə işə qəbul olunanlar 5 ildən sonra sertifikasiyaya olunacaqlar.

Nazir qeyd edib ki, üzrlü səbəblərdən sertifikatlaşdırmada iştirak etməyən və ya sertifikatlaşdırmadan keçməyən şəxslər 1 il müddətində iş yeri saxlanılmaqla təkrar sertifikatlaşdırmada iştirak etmək hüququna malikdirlər. Qaydaya əsasən təkrar sertifikatlaşdırmada iştirak etməyən şəxslər və təkrar sertifikatlaşdırmada müəyyən olunmuş keçid balını toplaya bilməyən təhsilverənlər sertifikatlaşdırmadan keçməmiş hesab olunurlar.

Bildirilib ki, sertifikatlaşdırmanın nəticələri təhsilverənlərin karyera inkişafında və əməyinin stimullaşdırılmasında nəzərə alınacaq.

Sonra şəhər və rayon Təhsil şöbələrinin müdirləri sertifikasiyaya hazırlığın vəziyyəti, görülən işlər haqqında məlumat verib, iştirakçıları maraqlandıran sualları cavablandırıblar.

***Naxçıvan Muxtar Respublikası***
***Təhsil Nazirliyinin mətbuat xidməti***

# Atalardan oğullara qalan ərməğan:
## sıx birlik, Vətən təəssübkeşliyi, yurda bağlılıq

*Görkəmli dövlət xadimi Heydər Əliyev Sədərəyi "Qeyrət qalası" adlandıraraq demişdir:* ***"Muxtar respublika kəndləri dəfələrlə silahlı hücumlara məruz qalmışdır. Lakin biz hamımız yaxşı bilirik ki, əsasən, ağırlıq Sədərəyin üzərinə düşmüşdür. Sədərəkdə vəziyyət tamam başqadır. Burada əsl müharibə gedir".*** *O günlərdə Naxçıvanın ürəyi Sədərəkdə döyünürdü, nigaran baxışlar oraya dikilmişdi. Əli silah tutan hər kəsin Sədərəyə yollandığı həmin vaxtlarda hamının arzusu, duası bir idi: cəbhəyə gedənlərin sağ-salamat qayıtması və torpaqlarımızın, yenicə qazandığımız, hələ təzəcə daddığımız müstəqilliyimizin qorunması.*




Qanlı-qadalı döyüşlərdə xalq birliyi qeyrət qalasını qorudu. "Ermənilər Sədərəyə ancaq bizim meyitimizin üzərindən keçib gedə bilərlər", – deyən oğulların qanı ilə suvarıldı Vətən torpağı. Ulu öndərimiz Heydər Əliyevin ətrafında birləşən əhalinin sıx birliyi, Vətən təəssübkeşliyi, yurda bağlılığı Sədərəyi qorudu. Budur xalqımızın dəyanəti, budur vətənsevərlik, budur torpaq, yurd sevgisi. Həmin illərdə bunu təkcə mənfur ermənilər yox, bütün dünya gördü. Və bu həqiqət qədim Oğuz yurdu, adı dastanlara sirdaş olan Sədərəyə bir ad da qazandırdı – Naxçıvanın qeyrət qalası.

Ermənilər 1990-93-cü illərdə 14 dəfə Sədərəyə hücum etsələr də, hər dəfə geriyə çəkilməyə məcbur qalıblar.

Sədərək rayon kimi muxtar respublikanın inzibati ərazi bölgüsünə 1990-cı il avqustun 28-də daxil edilib. Rayon mərkəzi olan indiki Heydərabad qəsəbəsi ümummilli lider Heydər Əliyevin xeyir-duası ilə salınıb. Ulu öndər 2002-ci ildə sədərəklilərlə görüşündə bu haqda demişdir: ***"Sədərək rayonunun Naxçıvan Muxtar Respublikasında, o cümlədən Azərbaycanda xüsusi yeri var. Böyük bir kənd olmuş və rayon statusu almış Sədərək həmişə Azərbaycanın ən kənar yerində, sərhəddə yerləşərək Azərbaycan torpaqlarını qorumuş, saxlamış və mərdlik nümunələri göstərmişdir. Mən indi qəsəbəni belə görəndə həddindən artıq sevinirəm. Çünki sizin, yəqin ki, xatirinizdədir. Vaxtilə 1977-1978-ci illərdə mən Azərbaycanın başçısı olduğum zaman kənddən aralı bu qəsəbənin salınması***







***haqqında qərar verdim. Nə üçün kənddən aralı? Ona görə ki, o vaxtlar ermənilər yavaş-yavaş bu torpaqlara iddia edir, "bu bizimdir, o bizimdir", deyirdilər. Ona görə mən burada o vaxtlar bu qəsəbəni salmaq barədə göstəriş verdim. Layihələr hazırlandı, qəsəbə tikildi və sədərəklilərin bəziləri də buraya köçüb yaşamağa başladılar".***

Bu gün rayon mərkəzi Heydərabad qəsəbəsi özünəməxsus gözəlliyi ilə düşmənə gözdağı, bizə isə qürur yaşadır. O, adına layiq məğrurluqla dayanıb düşmənin qarşısında. Mənfur düşmənlə cəmi bir neçə yüz metr məsafədə üz-üzə yerləşən bu qəsəbədə bir-birindən yaraşıqlı inzibati və yaşayış binaları, istirahət parkı, rayonun idarə və müəssisələri üçün tikilmiş yeni quruculuq ünvanları göz oxşayır. Yeni inşa edilən 7 mərtəbəli yaşayış binası, hazırda tikintisi davam edən Bayraq Meydanı, Teleötürücü, çəkilən su-kanalizasiya sistemi də inkişafdan və qayğıdan xəbər verir. Buradakı bütün yollar öz rahatlığı ilə seçilir. Qəsəbədaxili yolların hər birinə asfalt döşənib, işıqlandırma sistemi quraşdırılıb. Ətrafda yaradılmış yaşıllıq zolaqları və gülkarlıqlar bu gözəlliyi daha da artırır. Səliqə-sahman və sakitlik isə buranın daimi həyat tərzinə çevrilib. Bütün mənzillərin pəncərəsindən düşmən postlarının göründüyü bu qəsəbədə həyat normal tərzdə davam edir. Heydərabadda yaşayan hər kəs, sanki səngərdə bir əsgər kimi həyat sürür. Bəli, onların hər biri əsgərdir səngərdə – öz evində Vətəni qoruyan müsəlləh əsgər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2010-cu il oktyabrın 5-də muxtar respublikaya səfəri çərçivəsində Sədərək rayonunun Heydərabad qəsəbəsinə gəlib, burada istifadəyə verilən yeni obyektlərin açılış mərasimində iştirak edib. Ölkə başçısı qəsəbə sakinləri qarşısında çıxış edərək deyib: ***"Sizi qəsəbənin açılışı münasibətilə təbrik edirəm. Gözəl evlər, binalar tikilib. Qəsəbə yeni dövrə qədəm qoyur. Bütün işlər ən müasir səviyyədə görülübdür. Çox şadam ki, respublika rəhbərliyi bütün bu işləri qısa müddət ərzində çox böyük keyfiyyətlə gördü. Bu, doğrudan da, böyük hadisədir.***

***Heydərabad qəsəbəsinin Azərbaycan tarixində çox mühüm yeri vardır. Siz düşmənlə üz-üzəsiniz, sərhəddəsiniz və vaxtilə buralar dağıdılmışdı. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və işğalçı siyasəti bu bölgələri də əhatə etmişdir. Məhz ulu öndər Heydər Əliyevin fəaliyyəti və qətiyyəti, müdrikliyi nəticəsində Naxçıvan özünü qoruya bilmişdir... Əgər o vaxt Heydər Əliyev Naxçıvana gəlməsəydi və burada bütün işləri lazımi səviyyədə görməsəydi, Naxçıvanın aqibəti çox acınacaqlı ola bilərdi. Biz qədim torpağımızı itirə bilərdik".***

Ötən günlərdə bu qəsəbədə olarkən düşmən postlarının yaxınlığında yerləşən əkin sahələrində torpağa baş əyən, həyətyanı sahələrində yetişmiş meyvələri toplayıb qışa tədarük edən insanlarla rastlaşdıqca bir düşüncə məni tərk etmirdi:

"Bura elə bir yer idi ki, bir vaxtlar bütün evlər ermənilərin ağır silahlardan atdığı mərmilərlə dağıdılmışdı, nə yol var idi, nə iz. Evlərin zirzəmilərində yaşayan insanlar əllərində olan bir ovuc undan hazırladıqları çörəyi səngərdə döyüşən əsgərlə yarı bölürdülər. Elə bu Vətən sevgisi, birlik qorudu torpağımızı".

Qəsəbədə həyat öz axarı ilə davam edir. Buranın səmimi, qoçaq, cəsur insanları ilə həmsöhbət olduq. Yaşı 70-i ötmüş Səkinə Vəliyeva:

– 1990-cı ilin soyuq, şaxtalı qış günlərində mənfur ermənilər Sədərəyə hücum etmişdilər. Topun, tüfəngin səsindən qulaq tutulurdu. Biz qadınlar evlərimizdə səngərdəki balalarımıza isti çörək, yemək bişirib göndərirdik. O vaxt belə ordu quruculuğu yox idi. Nə müasir silah var idi, nə də isti geyim-kecim. Biz o vaxt balalarımızı səngərdə tək qoyub qaçsaydıq, indi nə torpaq var idi, nə də azadlıq. Səngərdə döyüşən əsgər arxasında xalqın olduğunu bilib daha böyük bir hünərlə durdu düşmənin qarşısında. İndi dövlətimiz çox güclüdür. Onların sayəsində evlərimizdə rahat yatırıq. Hər cür şəraitimiz də var. Hər kəs torpağını istədiyi kimi əkib-becərib qazanc əldə edə bilir. Bu gün burada əmin-amanlıqla yaşayırıq. Bütün bunları isə dövlətimizə borcluyuq. Allah bayrağımızı həmişə yüksəklərdə dalğalandırsın. Xalqının, elinin qədrini bilənlərin də bax bu su kimi ömrü uzun olsun.

Heydərabad qəsəbəsinin digər bir sakini Saleh Heydərov:

– Bu qəsəbə salınan vaxtlar qonşularımızın gələcək planlarından xəbərsiz idi hamı. Bir vaxtlar çörəkpulu üçün gəlib qapımızda fəhləlik edən ermənilərin, demək ki, bu torpaqlarda gözü var imiş. Zaman keçdi, Sovetlər Birliyi dağılanda onların əsl üzünü gördük. Qəfil hücum olduğunda hər kəs əlinə silah alıb Vətənin müdafiəsinə qalxdı. Naxçıvanı tərk etməyə hazırlaşan sovet qoşunları bizə heç bir köməklik göstərmirdilər. Naxçıvan şəhərindən, Şərur və başqa rayonlardan əli silah tutan hər kəs döyüşə gəlmişdi. Öz havadarlarından güc alan ermənilər başımıza od yağdırsa da, atılan mərmilərdən evlərimiz dağılıb, körpələrimiz həlak olsalar da, bir an belə, geri çəkilmədik. Var gücümüzlə onlara sinə gərib qalib olduq. Elə gün olurdu ki, onlarla şəhid verirdik. Düşmən postlarımızı, yüksəkliklərimizi ələ keçirməyə cəhd göstərirdi. Yadımdadır, 1992-ci ilin mayında burada qanlı döyüşlər oldu. Onlarla şəhid verdik. Amma geri bir addım belə, atmadıq. Bu gün isə vəziyyət tamam başqadır. O mənfurlar 90-cı ildə ağızlarının payını elə alıblar ki, indi qorxularından dönüb biz tərəfə baxmağa belə, cürət etmirlər. Onlar öz köhnə uçuq-sökük evlərindən buradakı inkişafı həsədlə seyr edirlər. 2018-ci ildə Əlahiddə Ümumqoşun Ordunun həyata keçirdiyi əks-həmlə əməliyyatları nəticəsində ötən əsrin 90-cı illərindən Ermənistanın işğalı altına düşən 11 min hektar ərazi və mühüm strateji yüksəkliklər ordumuzun nəzarətinə keçdi. Həmin mühüm obyektlərdən biri Sovetlər Birliyi dönəmində Sədərək rayonunun Heydərabad qəsəbəsində fəaliyyət göstərən Şərab zavodudur. Ordumuzun şəxsi heyətinin həmin ərazini düşmən qüvvələrindən təmizləyərək strateji mövqelərdə postlar qurması onlara gözəl bir dərs oldu.

Bu gün artıq Şərab zavodu və onun ətrafı minalardan təmizlənib. Yetmiş hektara yaxın ərazi əkinəyararlı vəziyyətə gətirilib. İndi həmin ərazilərdə boy göstərən qarğıdalı sahəsindən yüksək məhsul götürməyi planlaşdırır sakinlər.

Müsahibim buradakı inkişaf və tərəqqidən danışaraq onu da deyir ki, muxtar respublikamızın hər bir bölgəsində olduğu kimi, Sədərək rayonunun da, demək olar ki, bütün kəndlərində müasir məktəb binaları, xəstəxana ucaldılıb. Bu, bütün rayon sakinlərini çox sevindirir. Sevinirəm ki, ucqar sərhəd yaşayış məntəqələrində, kiçik kəndlərdə də belə gözəl obyektlər inşa olunub. Bu, böyük diqqətdir. Bir vaxtlar top mərmilərinin hədəfi olan bu binaların divarlarında bir güllə izi belə, qalmayıb. Düşmənin lap yaxında olduğunu bilsək də, bundan heç kim narahatlıq keçirmir. Hamı bilir ki, bizə qarşı atılan hər bir güllənin cavabı veriləcək. Çünki sərhədlərimiz etibarlı şəkildə qorunur. Sədərəyin keçmişi elə idi ki, külək əsəndə, yağış yağanda toz-torpaq, palçıqdan burada durmaq olmurdu. İndi isə hər yer abadlaşdırılıb, park salınıb, kənd sakinlərinin dolanışığı xeyli yaxşılaşıb. Bütün bunlar insanları sıx tellərlə öz elinə, yurduna bağlayır.

*Doğma yurdumuz, tarixboyu torpağımıza göz dikənlərə qeyrətdən, Vətən sevgisindən, torpaq təəssübkeşliyindən ucaldılmış bir sədd olub. Çünki bu yurdun hər daşı sevgidən, Vətən məhəbbətindən, palçığı şəhid qanından yoğurulub. Bu yerdə vaxtilə çox müharibələr, qanlı qırğınlar olub. Ancaq yurdumuz qısa zaman ərzində qəddini dikəldə bilib, abadlaşıb, yenidən güllük-gülüstana çevrilib. Düşmənlərimiz yüzillərboyu bu torpaqlara sahiblənməyə çalışıblar, ancaq acı məğlubiyyətdən başqa heç nə əldə edə bilməyiblər. Odur ki, qədim Oğuz yurdunun tarixin hər səhifəsində min-min salnaməsi var. Bu salnamələr bir yerə toplananda isə qədim diyar haqqında ümumi bir fikir formalaşır: Bura VƏTƏNDİR, bura doğma Naxçıvanımın qeyrət rəmzi, yenilməzlik simvoludur! Elə onu üç tərəfdən dövrəyə alan vüqarlı dağlar da əzəməti Vətən oğullarının bir vaxtlar döyüşlərdə bu torpağa hopan qanından, sevgisindən alır, – deyə düşünürəm. Düşmənə gözdağına çevrilən Sədərək-Heydərabad qəsəbəsi düşmən qarşısında hər zaman dağ kimi dayanaraq hər bir azərbaycanlıya qürur hissi yaşadır.*

**Ramiyyə ƏKBƏROVA**

## Vətəndaşlara səyyar xidmət göstərilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın əməkdaşları və könüllülərdən ibarət səyyar xidmət qrupu Şərur rayonunda olublar. Xidmət zamanı Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinə, dövlət ümumi təhsil müəssisələrinə və dövlət musiqi təhsili müəssisələrinə işə qəbul üçün elan edilmiş müsabiqələrdə iştiraklarını təmin etmək məqsədilə vətəndaşlara qeydiyyatdan keçməkdə operativ köməklik göstərilmişdir.

Gün ərzində 49 vətəndaşa səyyar xidmət göstərilmişdir. Xidmət zamanı karantin rejiminin qaydalarına ciddi əməl olunmuşdur.

Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın həyata keçirdiyi xidmət sənəd qəbulunda iştirak edən vətəndaşlar tərəfindən yüksək qiymətləndirilmişdir.

Qeyd edək ki, bu layihə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrasının təmin edilməsi məqsədilə həyata keçirilir. Xidmətin növbəti ünvanı 24 iyul 2020-ci il tarixdə Ordubad rayonu olacaqdır.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Onlayn görüş keçirilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirliklərinin birgə təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən sahibkarlar, işəgötürənlərlə maarifləndirici görüşlər keçirilir, onlara qanunvericiliyin müvafiq tələbləri izah olunur, bu mövzuda onları maraqlandıran suallar cavablandırılır. Bu tədbirlərin davamı olaraq növbəti görüş iyulun 22-də onlayn formatda keçirilib.

İşəgötürən müəssisələrlə sosial tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsi məqsədilə keçirilən tədbirdə Naxçıvan şəhərində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin nümayəndələri və nazirliklərin əməkdaşları iştirak ediblər.

Onlayn görüşdə "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı insan kapitalının inkişafı, o cümlədən iqtisadi fəallığın yüksəldilməsi, həyata keçirilən məşğulluq siyasətinin səmərəliliyinin artırılması, işəgötürənlərin əsas maraqlarının, həmçinin əmək bazarının əsas sahələri və peşə hazırlığının əmək bazarının tələbinə uyğunlaşdırılması məqsədilə işəgötürənlərə müvafiq kadrların hazırlanmasında köməklik göstərilməsi, işəgötürənlərlə məşğulluq orqanları arasında səmərəli əlaqələrin təşkili ilə bağlı müzakirələr aparılıb və sahibkarları maraqlandıran suallar cavablandırılıb.

Bu kimi tədbirlərin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Zəfər günü yaxındadır Ağdamın

***Yayın ortası olmasına baxmayaraq, hər tərəfdə, sanki payız küləyi əsirdi, ucsuz-bucaqsız əkin sahələri saralıb, quruyub xəzana dönmüşdü. Sanki yazda torpağa atılan toxumlar bitmək, göyərmək istəmirdilər. Suyu da azalmışdı dağ bulaqlarının. Hansı ki Ağdamın qalın meşələrlə örtülü dağları həmişə ilin bu vədəsində insanı valeh edərdi. O vəhşət dolu il isə həmin gözəlliklərdən əsər-əlamət qalmamışdı. Od yağırdı Ağdamın başına. Ocağımızdan köz, bulağımızdan su götürən nadanların, sən demə, ocağımızda da, bulağımızda da gözləri var imiş. Çörəkpulu üçün fəhləlik, dəmirçilik, kömürçülük... etdikləri bir şəhərə yiyə çıxmaq eşqinə düşmüşdü ermənilər. 70 illik "qardaşlarımızın" xainliyi, mənfurluğu başıqarlı dağların buz bulaqlarının suyunu da qurutmuşdu. Qarabağın gözü olan Ağdam 1988-ci ilin fevralında Ermənistan və Dağlıq Qarabağdan çıxarılan on minlərlə azərbaycanlını köksünə almışdı. İnsanlarının vətənpərvərliyi, döyüş ruhu ilə düşmənə hər zaman gözdağı olan sevimli, yaraşıqlı Ağdamımız! O vaxtlar nə biləydi ki, mənfurların ən böyük arzusu ona yiyələnməkdir...***



1993-cü ilin iyun-iyul aylarında Gəncə və Bakıda baş verən hadisələr ermənilərə Qarabağ cəbhəsində hücum əməliyyatlarını genişləndirməkdə kömək edir. Ağdam üzərinə edilən birinci hücum nəticəsiz qaldığından ermənilər qüvvəni Ağdərə istiqamətində cəmləşdirir. İyulun 7-də Ağdərə düşmən əlinə keçir. Bunun ardınca ermənilərin iki ordu korpusu Ağdam istiqamətində əməliyyata başlayır. Ağdamın müdafiəsində, əsasən, könüllülərdən ibarət və düşməndən sayca az olan Azərbaycanın Milli Ordusu dururdu. 42 gün davam edən döyüş Ağdamın işğalı ilə sona çatır. Bu, Dağlıq Qarabağ ətrafında Laçın və Kəlbəcərdən sonra üçüncü böyük itki idi. Ağdam uğrunda gedən döyüşlər zamanı 6 mindən artıq vətəndaş şəhid oldu.

Həmin günlər xalqımızın yaddaşına vətəndaş müharibəsinin alovlandığı, torpaqlarımızın işğalı ilə bərabər, həm də qurtuluş günləri kimi yazıldı. Belə ki, xalqın təkidli tələbi ilə iyun ayında yenidən hakimiyyətə qayıdan ulu öndərimiz Heydər Əliyev öz siyasi gücü və xalqın köməyi ilə ölkədə baş verən hadisələrin, qardaş müharibəsinin qarşısını almağa, bununla bərabər, ermənilərin törətdikləri terroru dünyaya çatdırmağa səy göstərirdi. Hələ Naxçıvanda Ali Məclisin Sədri olduğu illərdə dahi rəhbərin göstərişi ilə Türkiyə ilə Azərbaycan arasında salınan Ümid körpüsü vasitəsilə xarici jurnalistlər oraya gətirilmiş və cinayətkar ermənilərin əməlləri dünya ictimaiyyətinə çatdırılmışdı. Tanrının Azərbaycan xalqına bəxşi olan dahi rəhbər dövlətimizi bu sınaqdan da üzüağ çıxardı. Görkəmli dövlət xadimi Azərbaycan cəmiyyətinin vahidliyini qorudu, onun sosial bərabərsizliyinə, regional faktor, dini və milli mənsubiyyət amili nöqteyi-nəzərindən parçalanmasına yol vermədi. Bununla da, Azərbaycan dövlətçiliyinin yaşaması təmin olundu. Torpaqlarımızın daha genişmiqyaslı işğalının qarşısı alındı.

Dövlətçilik tariximizdə, mədəniyyətimizdə xüsusi yeri olan Ağdam Qarabağ düzündə ən iri şəhərlərdən biridir. Hazırda inzibati mərkəzi Ağdam şəhəri də daxil olmaqla, ərazisinin böyük bir hissəsi erməni işğalı altında olan Azərbaycan rayonudur. İşğala məruz qaldığına görə rayonun yalnız 10 kəndi Azərbaycanın nəzarəti altındadır. Ağdam rayonu 8 avqust 1930-cu ildə yaradılıb. Sahəsi 1154 kvadratkilometr olan rayonun relyefi, əsasən, düzənlik, qismən dağlıqdır. Rayon Azərbaycanın qədim, füsunkar təbiətli torpağı olan Qarabağın mərkəzində – Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşir. Gözəl Qarabağın ürəyi sayılan Ağdamın qədim tarixi abidələri minilliklərin keşməkeşlərindən keçərək bu günə qədər gəlib çatmışdır. Rayonun ərazisində XX əsrin 50-ci illərindən başlayaraq aparılan arxeoloji tədqiqat işləri zamanı məlum olmuşdur ki, qədim insanların yaşayış məskənlərindən biridir. Tanınmış arxeoloq İdeal Nərimanovun Üçoğlantəpə deyilən yerdə apardığı arxeoloji tədqiqatlar zamanı aydın oldu ki, ilk qədim insanlar rayon ərazisində altı-səkkiz min il bundan əvvəl, yəni Eneolit dövründə (e.ə. IV-VI minilliyi əhatə edir, "misdaş" dövrü adlanır) yaşamış, qədim əkinçilik və maldarlıq mədəniyyətinə bələd olmuşlar. Alim rayonun digər ərazilərində qədim yaşayış məskəni olmuş Leylatəpə və Üzərliktəpə deyilən yerlərdə apardığı arxeoloji tədqiqatlar zamanı Eneolit və Orta Tunc dövrlərinə aid (e.ə. II minilliyin birinci yarısı) dulusçuluq, metaləritmə, zərgərlik və digər sahələrə aid maddi-mənəvi abidələr aşkar edib. Buradan tapılan taxıl və üzüm dənələri bir daha sübut etmişdir ki, yerli əhali oturaq həyat keçirmiş və yüksək əkinçilik mədəniyyətinə malik olmuşdur. Arxeoloqlar Üzərliktəpədə apardıqları tədqiqatlar nəticəsində tapılan maddi mədəniyyət qalıqlarına əsaslanaraq qeyd edirlər ki, bura Qafqazda ilk şəhərtipli yaşayış məskəni və Zaqafqaziyada ən zəngin abidələri olan yerlərdən biri olmuşdur. XX əsrin 80-ci illərinin ortalarında rayonun Sarıçoban kəndi yaxınlığında Son Tunc və Dəmir dövrlərinə aid (e.ə. XIX-XIII əsrləri əhatə edir) möhtəşəm kurqan tarixi cəhətdən çox qiymətli bir abidədir. Kurqanda aşkar edilən e.ə. XII-XIII əsrlərə aid maddi tapıntılar bu abidənin varlı bir insanın qəbri olduğundan xəbər verir. Bu isə həmin dövrdə Azərbaycanda ibtidai icma quruluşunun dağılaraq sosial və əmək bərabərsizliyinin yaranmasına ən yaxşı əyani sübutdur. Ağdam şəhəri, onun qədim keçmişin şahidi olan çox sayda tarixi abidələri, mədəniyyət, memarlıq nümunələri, keçmiş SSRİ-də 1-ci, dünyada 2-ci olan Çörək muzeyi düşmən tərəfindən vəhşicəsinə dağıdılıb. XX əsrdə Qarabağ at cinsinin tarixində ən önəmli hadisə olan Ağdam Atçılıq Zavodu da erməni təcavüzünə məruz qaldı. 1993-cü ildə Ağdam rayonunun erməni təcavüzkarları tərəfindən işğal edilməsindən sonra Azərbaycanın milli sərvəti, yerli genofondumuzun əsaslarından olan Qarabağ atları köçkünlük həyatı yaşayır. Ağdam Atçılıq Zavodu 1994-cü ildən Ağcabədi rayonunun Xamtorpaq ərazisində fəaliyyət göstərir.

Bu gün Ağdamdan olan 143 minə yaxın məcburi köçkün Azərbaycanın 59 rayonunun 875 yaşayış məntəqəsində məskunlaşıb. Ulu öndərimizin hakimiyyətə gəlməsi ilə düşmən işğalından azad olunan Ağdam ərazisinin bir hissəsində – düşmənlə beş-on metr yaxınlıqda bu gün inkişaf və tərəqqi var. Aprel döyüşlərində düşmən tərəfin ağır silahlardan atdığı mərmilərlə dağıdılan evlər dövlət rəhbərinin qayğısı ilə yenidən inşa edilib sakinlərin ixtiyarına verilib. Ali Baş Komandan cənab İlham Əliyevin Aprel döyüşlərində həmin ərazilərdə olması sakinlərin torpaqlarına daha da möhkəm tellərlə bağlanmasına və gələcəyə daha böyük ümidlə baxmasına səbəb oldu. Dövlət başçısının cəbhə bölgəsinə səfəri və: ***"Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır. İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı bizim tarixi torpağımızdır. Biz azərbaycanlılar o torpaqlara qayıtmalıyıq və qayıdacağıq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Həmişə belə olub, bu gün də belədir, sabah da belə olacaq. Sadəcə olaraq 1990-cı illərin əvvəllərində baş vermiş hadisələr nəticəsində müvəqqəti olaraq torpaqlarımız işğal altına düşmüşdür. Ancaq biz öz suverenliyimizi bərpa edəcəyik. Bütün işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada, Xankəndidə Azərbaycan bayrağı qaldırılacaqdır. Bu, bizim məqsədimizdir. Bu məqsədə doğru gedirik və biz bu məqsədə çatmaq üçün daha da güclü ordu yaratmalıyıq"***, – dediyi sözlər qələbəyə olan inamımızı daha da artırdı.

Mən Ağdamda dünyaya göz açmasam da, orada böyüməsəm də, həyatımın 4 ilini bu rayonun Çəmənli kəndində keçirmişəm. Orada tanımışam məğrur insanlarını Ağdamın. Və onlarla bərabər hər səhər dinamit döşənib partladılan ucamərtəbəli binaların, vandalizmə məruz qalan tarixi abidələrin göyə sovrulan dumanını izləmişəm. Hər yay yandırılan torpaqlarımızın yüksələn alovunu görmüşəm. Dağıdılan abidələrin, yandırılan torpaqların dumanı illərdir, dilə gəlir. "Qafqazın qapısı" adlandırılan Ağdam ermənilərin vandallığı ucbatından Qafqazın Xerosimasına dönüb. Uzun illərdir, öz Vətənindən öz yurduna həsrətlə, ürək yanğısı ilə baxır ağdamlılar. Bu isə damarında azərbaycanlı qanı axan hər kəsin ürəyində qəzəb, intiqam alovunu atəşləndirir... Çəmənlidə, Xındırıstanda, Ağcabədi rayonunun Arasbar, Yuxarı Qiyamaddınlı kəndində bir gün belə, keçirənlər indi onların həsrətini duyur. Səngərdə dayanan hər bir hərbçi isə hər an bu həsrətə son verməyə hazırdır. Öz doğma torpaqlarından zorla çıxarılanlar əmindirlər, bilirlər ki, məqam gözləyir Azərbaycan əsgəri, Aprel döyüşlərində olduğu kimi. 2016-cı ildə cəmi dörd gün ərzində düşmənin 24 il qurduğu istehkamları yarıb Lələtəpə və Talış yüksəkliklərini, 2018-ci ildə isə Naxçıvan istiqamətində bir gecədə 11 min hektar ərazini azad edən ordumuzun hər bir əsgəri yeri gələndə Səməd bəy Mehmandarov, yeri gələndə Polad Həşimov, yeri gələndə Mübariz İbrahimovdur. Hər bir ağdamlı əmindir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə işğal altındakı torpaqlarımız azad ediləcək, gündən-günə qüdrətlənən ölkəmizin üçrəngli bayrağı bu yerlərdə dalğalanacaq. Silahı dosta kölgə, düşmənə ölüm gətirən ordumuz xalqımıza tarixin ən şanlı Qələbə gününü tezliklə yaşadacaq. Yaxın günlərdə dövlət sərhədimizdə baş verən döyüşlərdə ordumuzun düşmənin hücum cəhdlərinin qarşısını qəhrəmancasına alaraq geri oturtması və günlərdir, xalqımızın ordumuza dəstək olaraq hər an döyüşə getmək əzmləri bunu bir daha sübut etdi.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Sertifikasiya imtahanlarının ikinci mərhələsi keçirilib



İyulun 22-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə Naxçıvan Şahmat Məktəbində ümumtəhsil məktəblərində şahmat fənnini tədris edən müəllimlərin praktik biliklərinin yoxlanılması məqsədilə sertifikasiya imtahanlarının ikinci mərhələsi keçirilib. İmtahanın bu mərhələsində birinci mərhələdə uğur qazanmış 18 müəllim iştirak edib.

Xatırladaq ki, iki mərhələdə təşkil olunan sertifikasiya imtahanlarının birinci – test mərhələsi iyulun 20-də Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada keçirilmişdir. Qeydiyyatdan keçmiş 20 müəllimin iştirak etdiyi imtahanda test tapşırıqlarının ən azı 50 faizini düzgün cavablandıran 18 nəfər müvafiq keçid balını toplayaraq ikinci mərhələdə iştirak hüququ qazanmışdır.

Qeyd edək ki, sertifikasiya imtahanının ikinci mərhələsində uğur qazanan müəllimlər muxtar respublikanın ümumtəhsil məktəblərində şahmat fənnini tədris etmək hüququ qazanacaqlar.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Şəhər birinciliyi başa çatıb



*Naxçıvan Muxtar Respublika Stadionunda yeniyetmələrin yay tətilinin səmərəli təşkili məqsədilə yüngül atletika üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.*

Tədbirin açılış mərasimində çıxış edənlər bildiriblər ki, birinciliyin keçirilməsində məqsəd yeniyetmələrin yay tətilində asudə vaxtlarının daha da səmərəli olmasını təşkil etmək və onları sağlam həyat tərzinə uyğunlaşdırmaqdan ibarətdir. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbinin təşkilatçılığı ilə keçirilən yarış Beynəlxalq Atletika Federasiyasının qaydalarına uyğun keçirilib.

Yekun nəticəyə əsasən 60 metr məsafədə Fuad Quliyev, 100 metr məsafədə Xəyal Fərəcli, 200 metr məsafədə isə Allahverdi Məmmədov finiş xəttinə hamıdan öncə çatıblar.

Sonda qalib idmançılara diplomlar təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:* Etibarnamə hansı müddətə verilir?**

**Cavab:** Azərbaycan Respublikasının mülki qanunvericiliyinə əsasən bir şəxsin üçüncü şəxslər qarşısında təmsilçilik üçün başqa şəxsə verdiyi vəkalət etibarnamə sayılır. Təmsil edilən təmsilçinin əqd bağlaması üçün yazılı vəkaləti bilavasitə müvafiq üçüncü şəxsə təqdim edə bilər. Notarial forma tələb edən əqdlərin bağlanması üçün etibarnamə notariat qaydasında təsdiqlənməlidir.

Nəqliyyat vasitəsinə dair sərəncamvermə hüququnu nəzərdə tutan etibarnamə istisna olmaqla, etibarnamə istənilən müddətə verilə bilər. Əgər etibarnamədə müddət göstərilməyibsə, o bağlandığı gündən bir il ərzində qüvvəsini saxlayır. Bağlandığı tarix göstərilməyən etibarnamə əhəmiyyətsizdir.

Xaricdə hərəkətlərin yerinə yetirilməsi üçün nəzərdə tutulan və qüvvədəolma müddəti göstərilməyən etibarnamə notarius tərəfindən təsdiqləndikdə etibarnaməni vermiş şəxs tərəfindən ləğv edilənədək qüvvəsini saxlayır. Nəqliyyat vasitəsinə dair sərəncamvermə hüququnu nəzərdə tutan etibarnamə bir ildən artıq müddətə verilə bilməz.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

### *Bildiriş*

"Elektrikləşdirmə" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətini dayandırdığından ləğv olunur.

### *İtmişdir*

Sadiqov Turan İlqar oğlunun adına olan 0201000512 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Şəhriyar kəndində yaşamış Nəzərova Gövhər Abdulla qızının adına verilmiş JN-243$^{B}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Dəmirçi kəndində yaşamış Kərimov Kərəm Əli oğlunun adına verilmiş JN-1096$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Məmmədov Qibləli Hüseyn oğlunun adına olan 1410 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Tumaslı kənd sakini İbrahimov Natiq Şamil oğlunun adına verilmiş JN-136$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayon Sirab kənd sakini Quliyev Rüfət Fərzalı oğlunun adına verilmiş JN-553$^{A}$ inventar nömrəli, 10300038 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 542